*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 67-74* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.67*

***Aşıq sənəti bizim milli sərvətimizdir, milli sənətimizdir. Azərbaycanda aşıq sənətinin çox dərin kökləri vardır. Azərbaycan aşıq sənətinin vətənidir. Bu gün bizim ideoloji əsaslarımız milli əsaslar, milli dəyərlər üzərində qurulubdur. Bu dəyərlər arasında bizim musiqimiz, ədəbiyyatımız, aşıq sənətimiz xüsusi yer tutur. Aşıq sənəti sadəcə olaraq, xalq yaradıcılığı deyildir, bu, Azərbaycan xalqının ürəyində yaşayan çox böyük dəyərdir.***

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

# Aşıq Ələsgər yaradıcılığında qadın obrazının yeni aspektdən təsviri

**Fatma Hacıyeva**
Tibb elmləri doktoru, professor
Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu
E-mail: dr.fatima79@mail.ru
https://doi.org/0000-0003-0198-5887

**Xətai Ələsgərov**
Dədə Ələsgər Ocağı İctimai Birliyinin sədri
E-mail: eleskerovhatai@gmail.com

**Annotasiya.** Məqalədə Azərbaycan ədəbiyyatının yaşayan siması olan Aşıq Ələsgər yaradıcılığında qadınların bir dəyər olaraq qəbul olunmasından bəhs edilmişdir. Yaradıcılıq nümunələrində qadın bəzən əlçatmaz sevgili, bəzən mənəvi ana, bəzən də könül sultanı olaraq təqdim olunur. Həmçinin burada bənzətmələr, təşbehlər, simvollar da nəzərə alınır ki, bu da qadın dəyərlərinin poetik sisteminin ayrılmaz hissəsi olaraq çıxış edir. Aşıq Ələsgər yaradıcılığında qadın gözəlləmələrində qadın obrazı sadəcə zahiri gözəlliyə malik bir varlıq kimi deyil, həm də mənəvi dəyər daşıyıcısı kimi təqdim olunur. Diqqət etdikdə aydın olur ki, Ələsgər qadına təkcə bir gözəl kimi yox, həm də bir mənəviyyat mənbəyi kimi yanaşır ki, bu da onun poetikasını xalq arasında bu günə qədər yaşadan əsas səbəblərdən biridir. Ələsgər yaradıcılığının əsas bölmələrində qadın nəinki ucaldılır, eyni zamanda öz dövrünün sosial-mədəni düşüncələrinin poeziya vasitəsilə ifadəsinə çevrilir.
**Açar sözlər:** Azərbaycan qadını, Aşıq Ələsgər, maddi-mənəvi dəyərlər, el sənətkarları, qadın gözəlliyi

**Məqalə tarixçəsi:** göndərilib – 04.07.2025; qəbul edilib – 21.07.2025

# A new perspective on the image of women in the creativity of Ashug Alesger

**Fatma Hajiyeva**
Doctor of Medical Sciences, Professor
The Scientific Research Institute of Obstetrics and Gynecology
E-mail: dr.fatima79@mail.ru
https://doi.org/0000-0003-0198-5887

**Khatai Alesgerov**
Chairman of Public Association "Dede Alesger Ojagy"
E-mail: eleskerovhatai@gmail.com

**Abstract.** The article examines the issue of accepting women as a value in the works of Ashug Alesger, a living figure of Azerbaijani literature. However, in creative examples, woman sometimes is presented as an unattainable lover, sometimes as a spiritual mother, and sometimes as the queen of hearts. Comparisons, metaphors and symbols that are an integral part of the poetic system of women's values are also taken into account here. In the works of Ashug Alesger, the image of a woman is presented not only as a creature with external beauty, but also as a bearer of spiritual value. If you pay attention, it becomes clear that Alesger considers women not only as beauties, but also as sources of spirituality, and this is one of the main reasons why his poetics have survived among the people to this day. In the most important sections of his work, Alesger not only extols women, but also expresses the socio-cultural thoughts of his time through poetry.
**Keywords:** Azerbaijani woman, Ashug Alesger, material-moral values, masters of the land, the beauty of a woman

**Article history:** received – 04.07.2025; accepted − 21.07.2025

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatının tarixi inkişaf mərhələlərində bir-birini əvəz edən inkişaf prosesləri olduqca mühüm istiqamətlərinə görə fərqlənmişdir. Burada xalq yaradıcılıq nümunələrinin və tarixiliklə müasirliyin vəhdətindən ibarət olan yaradıcılıq nümunələrinin özünəməxsus ifadə tərzini qeyd etmək yerinə düşər. Təbii olaraq, bu mərhələdə ölkəmizin maddi-mənəvi dəyərlərinin olduqca mühüm tərəflərində peşəkar aşıq yaradıcılıqlarını görmək olur. Aşıq yaradıcılıqlarını malik olduğu elmi və ədəbi mahiyyətinə görə iki qismə ayırmaq olar ki, bunlar da ifaçı aşıqlar və şair aşıqlar kimi təsnifləndirilir. Birincilər, poetik yaradıcılıqla məşğul olmurlar. Şair aşıqlar isə dastançı fəaliyyəti ilə yanaşı, həm də fərdi poetik yaradıcılıqla da məşğul olurlar. Azərbaycan ədəbiyyatına güclü təsir göstərmiş aşıqlara Qurbanini (XVI əsr), Aşıq Abbas Tufarqanlını (XVII əsr), Aşıq Valehi (XVIII əsr), Aşıq Ələsgəri (1826-1926), Aşıq Hüseyn Bozalqanlını və başqalarını misal göstərmək olar. Azərbaycan ədəbiyyatının çox mühüm və zəngin tərəflərindən biri olaraq qeyd oluna bilər ki, peşəkar aşıqlar arasında tanınmış qadın aşıqlar da olduqca mühüm fəaliyyətinə görə qeyd oluna bilər. Bu sırada Aşıq Pəri (XIX əsr), Aşıq Həmayıl (XIX əsr), Aşıq Bəsti, Aşıq Dilşad (XX əsr) və digərlərinin adlarını və yaradıcılıq nümunələrini qeyd etmək olar. Bunların içərisində Aşıq Bəsti xüsusilə məşhur olması ilə seçilmişdir. Onun çoxlu şagirdləri və ardıcılı olmuşdur. Qədimdə aşıqlar tək-tək və ya sazandalarla birlikdə səfərə çıxır, şəhər və kəndləri dolaşır, toylarda, el şənliklərində çıxış edirdilər [8, s.175].

**Əsas hissə / *Main Part***

Aşıqlar fikri, fəaliyyəti, yanaşması, bilikləri və dünyagörüşü ilə son dərəcə azad, sərbəst və yaradıcı rəssam təsiri bağışlamalıdırlar. Aşıqlar xalq arasında yalnız qoşma, gəraylı deyən, dastan söyləyən el sənətkarları kimi deyil, həm də aşıq sənəti sahəsində humanist olan, yoxsulların dərdinə yanan, onlara yol göstərən məsləhətçilər kimi də məşhur olmuşlar. “Aşıq necə olmalıdır və ya xalqa necə xidmət etməlidir?” sualına Aşıq Ələsgər belə cavab vermişdir:

*Aşıq olub tərki-vətən olanın,*
*Əvvəl, başda pür kamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.* [2, s.78]

Aşıq şeiri xalq ədəbiyyatı janrları içərisində ən çox müəllifi məlum olan nümunələrdir. Belə ki, hər bir aşıq şeirinin sonunda onu yaradan müəllifin adı, təxəllüsü verilir. Bu cəhət aşıq poeziyasını yazılı ədəbiyyata yaxınlaşdırır.

Xalqımızın yetişdirdiyi el sənətkarları içərisində Aşıq Ələsgərin xüsusi yeri vardır. Aşıq Ələsgər Azərbaycan aşıq poeziyası tarixində müəyyən bir məktəb yaratmış sənətkardır. Hələ gənc yaşlarından bir sıra görkəmli şəxslərin və sənətkarların diqqətini cəlb etmişdi. Məsələn: Y.H.Polonski hələ 1851-ci ildə “Kafkaz” qəzetində çap etdirdiyi məqalələrinin birində gənc Ələsgərdən danışmış, onun səsinə-sazına, mahnısına heyran olduğunu bildirmişdir [4, s.120]. Həmçinin Ələsgərin yaradıcılığında qadınların roluna və mövqeyinə də nəzər salmışdır. Xüsusilə də onun söylədiyi “Əsli və Kərəm” dastanı şairi heyran qoymuşdu.

Elimizin və obamızın milli adət və ənənələrinin yaşadılması, ailə dəyərlərinin qorunması və gələcək nəsillərə olduğu kimi çatdırılmasından ibarət olan mövzular Aşıq Ələsgərin yaradıcılığında ana mövzulardandır. Onun müəllifi olduğu şeirlər içərisində gözəlləmələr, aşiqanə qoşmalar məşhurdur və burada qadınlara verilən dəyərin önəmli olması öz yerini qoruyur. Eyni zamanda məhəbbət mövzusunda yazılmış bu şeirlər çox geniş yayılmışdır. Bu qoşmalarda, hər şeydən əvvəl, böyük bir sənətkarlıq keyfiyyətlərinin olması diqqəti cəlb edir.

Aşıq Ələsgər yaradıcılığında aşıq şeirlərində qadınların cəmiyyətdə, ailədə və məhəbbət mövzularında olan rolundan real şəkildə bəhs olunur:

*Axşam-sabah, çeşmə, sənin başına*
*Bilirsənmi, necə canlar dolanır!?*
*Büllur buxaq, lalə yanaq, ay qabaq,*
*Şahmar zülfü pərişanlar dolanır,* [9, s.99]

– deyən Aşıq Ələsgərin bu təbii, aydın və sadə təşbehlərlə verilmiş təsviri klassik aşıq şeiri üçün səciyyəvi sayıla bilər. Burada, eyni zamanda qadınlardan ibarət olan sevgi dünyasının təmizliyi, incəliyi və əsrarəngliyi özünü göstərməkdədir. Həmçinin, məhəbbət mövzusunda yazılmış şeirlərdə könül iztirabları ilə birlikdə insan gözəlliyinə yüksək qiymət verildiyini, gözəlliyin mühüm incəliklərinin, qəlb döyüntülərinin sənətkarın dili ilə məharətlə ifadə olunduğunu görürük.

Aşıq Ələsgər (1821-1926) Azərbaycan aşıq poeziyasının zirvələrində qərar tutmuş qüdrətli söz ustadıdır. Onun yaradıcılığı yalnız sazla müşayiət olunan sənətkarlıq nümunəsi deyil, həm də xalqın düşüncə və dəyərlər sisteminin poetik təcəssümüdür. Ələsgərin poeziyasında qadın mövzusu xüsusi yer tutur və bu mövzunun ən zəngin təzahür formalarından biri də gözəlləmələrdir. Bu mənada, tədqiqat əsərində Aşıq Ələsgərin qadın gözəlləmələrinin bədii-estetik xüsusiyyətləri, poetik dilin gücü və milli-mənəvi dəyərlərlə uzlaşması araşdırılır. Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasının nəhəng nümayəndəsi olaraq, öz dövrünün ictimai və mənəvi mənzərəsini əks etdirməkdə müstəsna rol oynamışdır. Onun şeirlərində qadın motivi xüsusi yer tutur və bu motiv

əsasən gözəlləmələr formasında poetikləşdirilir. Ələsgərin qadın gözəlləmələri estetik gözəlliklə mənəvi dəyərin vəhdətində təqdim olunur.

Elmi və nəzəri baxımdan yanaşdıqda aydın olur ki, Aşıq Ələsgərin yaradıcılığında qadın obrazının poetik arxetipi təqdim olunur və tarixiliklə müasirliyin vəhdətinin öz yerini tapması aktuallığına görə seçilmiş olur. Ələsgərin qadın gözəlləmələrində qadın obrazı sadəcə zahiri gözəlliyə malik bir varlıq kimi deyil, həm də mənəvi dəyər daşıyıcısı kimi təqdim olunur. Onun qadınları bir sıra hallarda:

- nazlı sevgili olaraq tərənnüm olunur;
- müdrik ana kimi qayğıkeş olur;
- ruhani gözəllik daşıyıcısı olaraq çıxış edir [7, s.104].

Ələsgərin qadın obrazı həm fiziki, həm də mənəvi gözəlliyin təcəssümüdür. Onun şeirlərində qadın bəzən əlçatmaz sevgili, bəzən mənəvi ana, bəzən də könül sultanı olaraq çıxış edir. Bunu əsərlərində belə ifadə edir:

*Gəzmə gözəl, gəl gör necə yandım,*
*Yana-yana köz içində qandım.* [3, s.207]

Ələsgərin qadın gözəlləmələrində poetik vasitələrin zənginliyi onun sənətkarlığını nümayiş etdirir. Bununla yanaşı, bu zaman, bənzətmələr, təşbehlər, simvollar onun poetik sisteminin ayrılmaz hissəsi olaraq çıxış edir. Aşıq Ələsgər qadına işıqlı bir varlıq kimi baxır və onu cəmiyyətin əhəmiyyətli üzvü olaraq dəyərləndirir.

*Ayna kimi parıldayır camalın,*
*Al yanağın, tellərin var, qara zülalın.* [1, s.321]

Aşıq bu misralarda qadın gözəlliyini ay, su və ayna simvolları ilə ifadə edir. Oxucuya çatdırır ki, qadınlar ayna kimi aydınlıq, camal kimi nurani gözəlliyin ifadə formasını təşkil edir.

*Qara zülflər tək bürüyüb hər yana,*
*Səni görməz oldum, ey nazlı dilbər.* [5, s.309]

Ələsgərin nəzərində zülflər sevgi və ehtirasın ifadə tərzi olaraq formalaşır. Bildirilir ki, qadınlar həm cazibədar, həm də onlara yanaşma, düşüncə tələb edir. Bütün bunlarla yanaşı, Aşıq Ələsgərin şeirlərində qadın gözəlliyinin mənəvi ölçüsü açıq şəkildə oxucu tərəfindən görünə bilir. Ələsgərin qadın gözəlləmələri təkcə bədən gözəlliyini yox, ruhi və əxlaqi kamilliyi də vurğulayır. O, qadını sadəcə, baxılası varlıq yox, həm də düşüncəsi olan bir şəxsiyyət kimi dəyərləndirir.

*Bir qız gərək ağlı, ədəbi ilə,*
*Özünü hər yerdə gözəl göstərsin.* [10, s.190]

Aşıq Ələsgərin yaradıcılığında qadınlar ağıllı və ədəbi dəyərlərin məcmusu və onun gözəlliyini tamamlayan əsas keyfiyyət olaraq təqdim olunur. Göstərir ki, qadın gözəlliyinin ən bariz nümunəsi onun dəyərli olması, özünə hörmət qazanması və cəmiyyətdəki yerindən ibarət olmasıdır:

*Gözəllikdən danışmağın nə faydası,*
*Əgər gövhər yoxdursa bir insanda.* [2, s.67]

Məhz Aşıq Ələsgər bu misralarda gözəlliyi mənəvi dəyərlə ölçür və onun olduqca yüksək mənəvi keyfiyyət olduğunu bildirir. Aşıq sevgiyə son dərəcə dəyər verir və sevgili ilə poetik dialoqda olmaqla bunu yaşadır. Bir çox gözəlləmələrində qadınla poetik dialoq qurulur. Bu həm aşıq ədəbiyyatının ənənəsinə uyğun gəlir, həm də qadını söhbətə çəkilən, fikri olan bir varlıq kimi təqdim edir. Bu məqsədlə göstərir ki:

*Ey gözəl, naz eyləmə, könlüm səndədir,*
*Sənlə başlayan sözüm, ahım səndədir.* [3, s.90]

Burada aşiqin qadına yönəlmiş təkcə heyranı yox, həm də iç dünyasını paylaşma arzusu verilir.

Aşıq Ələsgərin qadın gözəlləmələri, milli-mənəvi dəyərlərin məcmusu olaraq çıxış edir və bütövlükdə, Azərbaycan xalqının qadına olan münasibətinin, estetik və mənəvi dəyərlərinin poetik inikası olaraq çıxış edir. Onun şeirlərində qadın obrazı həm gözəllik, həm də əxlaqi bütövlük timsalıdır. Bu gözəlləmələr vasitəsilə Ələsgər qadına təkcə bir gözəl kimi yox, həm də bir mənəviyyat mənbəyi kimi yanaşır və bu onun poetikasını xalq arasında bu günə qədər yaşadan əsas səbəblərdən biridir.

Ələsgərin əsərlərində və yaradıcılıq nümunələrində, xüsusilə də gözəlləmələrində qadın obrazı klassik Şərq poeziyasında olduğu kimi, ilahiləşdirilmiş kamil bir varlıqdır. Göstərilir ki, qadınlar incəqəlbli varlıq olmaqla yanaşı, onların düşüncə tərzinin məhsulu olan bütün qənaətlər cəmiyyətin ülvi duyğularını təşkil etməkdədir. Lakin aşıq, qadınlar arasında fərq qoymadan, bunu obrazlı qaydada olmaqla, xalq dilinə yaxınlaşdıraraq real həyatdan götürülmüş sadə qadınlara da şamil edir.

Aşıq Ələsgər qadın gözəlliyini təsvir edərkən zəngin bədii dil və təsvir vasitələrindən istifadə edir. Onun şeirlərində təşbeh və bənzətmələr aparıcı rol oynayır. Belə ki, qadınlar, təbiətin gözəlliyinə, əsrarəngliyinə, təmizliyinə, saflığına, təbiiliyinə bənzədilir və qadınların təmiz duyğu və hissiyyatları ifadə olunur:

*Gülə, ay üzünə, bülbül səsinə,*
*Çiçək açmış bahar bağlarına...* [4, s.189]

Bu, kiçik mənada qadının, geniş mənada isə, cəmiyyətlə təbiətin bir bütövlük təşkil etdiyini göstərir. Burada metaforalar və simvollar əsas önəm daşıyır.

"Göz" – eşq aləminin qapısı
"Tel-tel saç" – vəcd və ilahi cazibə
"Qara zülflər" – eşqin qaranlıq girdabı [5, s.108].

Şair tez-tez sevdiyi qadına suallar ünvanlayır, onun susqunluğunda ilahi bir sükut görür. Ələsgərin gözəlləmələrində qadın yalnız cismani gözəlliklə tərənnüm olunmur. Bütünlükdə, mənəviyyatın ifadəsini təşkil edir. O yazır:

*Bir qız gərək ağlı, ədəbi ilə,*
*Özünü hər yerdə gözəl göstərsin.* [7, s.132]

Və ya:

*Ayna kimi parıldayır camalın,*
*Al yanağın, tellərin var, qara zülalın.*

Aşıq Ələsgər qadınlara dəyər verilməsini o qədər önəmli hesab edir ki, müəllifi olduğu misralarda bu gözəlliyi ay ziyası, su təmizliyi və ayna dürüstlüyü ilə ortaya qoyur. Məhz bu yanaşmaya görə, ayna – aydınlıq, camal – nurani gözəllik mənalarında qadının konkret ifadə formasını özündə əks etdirir. Aşıq bir sıra hallarda bənzətmə ədatlarından istifadə etməsə də, bənzəyənlə bənzədiləni elə qəribə tərənnümlə müqayisə edir ki, dinləyici şeirin bədii sənətkarlığına heyran qalmaya bilmir. Burada:

*Yel vurdu rübəndi atdı üzündən,*
*Elə bildim doğdu Ay Sarıköynək!*

Gözəlin üzünü Aya bənzədən Aşıq Ələsgər onun üz örtüyünü də buluda bənzətmişdir. Aşıq çox zaman əşyaların əlamət və xüsusiyyətlərini göstərir, onların adlarını çəkmədən maraqlı bənzətmələr yaradır:

*Camalın şoxundan cismim əridi,*
*Zülfündən üstümə sayə düşərmi?!* [3, s.409]

Buradan aydın başa düşülür ki, Aşıq öz cismini muma bənzətməklə, məşuqənin Camalını Günəşə, zülfünü isə buluda bənzətmişdir.

Bu misralar onun qadına baxışında mənəvi kamillik və əxlaqi tərbiyənin nə qədər önəmli olduğunu göstərir. Ona görə gözəllik yalnız "göz"lə deyil, "gönül"lə dəyərləndirilməlidir.

Tanınmış gözəlləmə nümunələri onun yaradıcılığının əsasını təşkil etməkdədir. Məsələn, "Gəzmə gözəl, gəl gör necə yandım" deyilərkən, burada qadının yalnız gözəlliyi deyil, onun sevgidəki əvəzsiz rolu da vurğulanır.

Aşıq Ələsgər incəqəlbli, həssas, hər şeyi düzgün qiymətləndirən, gözəllikləri duyan, onu vəsf edən qüdrətli bir söz ustadıdır. Təbiətdə və cəmiyyətdə elə vacib bir məsələ yoxdur ki, bu və ya digər şəkildə Aşıq Ələsgər ona toxunub, öz münasibətini bildirməmiş olsun. Aşıq Ələsgər hər şeydən əvvəl, böyük bir eşq sahibidir, gözəllik aşiqidir. Bu eşq, məhəbbət, gözəllikdən zövq almaq duyğusu ömrünün əvvəlindən sonuna qədər onu tərk etməmişdir. O, təbiətdə mövcud olan təbiət gözəlliklərinin vurğunu, vətənini, elini sonsuz məhəbbətlə sevən əsl xalq aşığıdır.

Yaradıcılığa Səhnəbanunun eşqi və onun tərifi ilə başlayan Ələsgər bütün ömrü boyu gözəlləri vəsf etmişdir. Onun müxtəlif səpkili şeirlərinin böyük bir qismi bu mövzuda yaradılmışdır.

Əsərlərində adları çəkilən Bəyistan, Əsli, Pərizad, Gövhər, Güləndam, Güllü, Nərgiz, Müşkünaz, Telli, Nazpəri, Gilə, Həcər, Mələk, Şapəri və s. gözəllər sadə gənc qızlardır. Onlar sadə olduğu qədər də abırlı, ismətli, məhəbbətlərinə sədaqətli və mehribandırlar:

*Züleyxa təmkinli gözəllər hanı,*
*Siması, libası qurğu – nizamı;*
*Qardaş deyib, dindirirlər adamı,*
*Hörmətləri, mərifətləri yaxşıdır.* [8, s.186]

Gözəlləri tərifləyərkən, xalqın əxlaq normalarına uyğun gəlməyən, etikadan kənar fikir söyləyən bir çox aşıq şairlərdən fərqli olaraq, Aşıq Ələsgərin ifadələrində açıq-saçıqlıq yoxdur. Aşıq gözəllik aşiqidir. Obrazlı şəkildə desək, gözəllik şamının pərvanəsidir. İlk şeirlərindən olan "köynəyinə" rədifli qoşmasında deyir:

*Sinən Kəbə, köynək Kəbə örtüyü,*
*İzin versən, sürtəm üz köynəyinə.*

Burada aşiqin məşuqəsinə olan məhəbbətinin müqəddəsliyi, səmimiliyi, aliliyi, paklığı insanı heyran edir. Aşıq Ələsgərin hamıya məlum olan məşhur "Düşdü" rədifli qoşmasının məzmunundan aydın olur ki, o, çərşənbə günündə çeşmə başında gördüyü gözəl bir qıza vurulmuşdur. Qızın baxışları, qəmzələri onun varlığına hakim kəsilmiş, qanına, iliyinə işləmiş, onu sehirləmişdir. Həm gözəl, həm əhli-dil olan bu qızla ailə qurmağı xəyalına gətirən, onun eşqi ilə pərvazlanan aşiq qızın nişanlı olduğunu biləndə bu fikrindən əl çəkmiş, onun qol-qanadı sınmış, ümidləri boşa çıxmışdır.

Aşıq gördüyü gözəlləri vəsf edərkən çox zaman klassik şeir ənənələrinə sadiq qalaraq, onların qaşını kamana, kirpiyini oxa, alnını aya, yanağını almaya, buxağını büllura, boyunu sərvə, saç hörüklərini ilana, ümumi şəkildə isə camalını Günəşə bənzədir. Amma belə sabitləşmiş bənzətmələrə üstünlük verməyən sənətkar gözəli tərifləyərkən elə ifadələr işlədir ki, onun gözəlliyinin bərabəri olmadığını elə müqayisələrlə söyləyir ki, bunlara yalnız ulu ustadın yaradıcılığında təsadüf edirik:

*Həcər xanım, qaşın, gözün təhrində*
*Xətt yazsam, Quranda ayə düşərmi?*

Belə yanaşma və ifadə xüsusiyyətlərinə görə oxucu əmin olur ki, qadın müqəddəs sevgilərin də tərənnüm olunduğu varlıqdır və İlahi sevginin bir hissəsi olaraq qəbul olunur.

Bəzən də bənzətmələrdən istifadə etməyən aşıq gözəlin barəsində elə dolğun söz söyləyir ki, onun gözəlliyi hər bir dinləyicinin (oxucunun) gözü qarşısında gözəllər gözəli kimi canlanır:

*Yaradan xəlq edib bir qətrə nurdan,*
*Düşübsən ellərə nişana, Telli!*

Yaxud:

*Tərsa uzun görsə, tez gələr dinə,*
*Alim görsə, gedər saz alı, Güllü.* [9, s.79]

Aşıq Ələsgər tariflədiyi qız-gəlinləri zahiri gözəlliklərini, xüsusən milli geyimlərini və bəzəklərini elə məharətlə təsvir edir ki, gözlərimiz önündə rəssamlarımızın çox asanlıqla yarada biləcəyi füsunkar bir gözəlin, Azərbaycan gözəlinin portreti dayanır:

*Qüdrətdən çəkilib qaməti şahbaz,*
*Mərnus dizlik geyib, çəpgəni ətlaz.*
*Buxaq düymələnib kağızdan bəyaz,*
*Mərcan düzüb boyunbağı qırmızı.*

Aşıq Ələsgər insan gözəlliyini hər şeydən öncə onun mənəvi aləmində axtarır. Təriflədiyi gözəllər zahirən nə qədər gözəl olsalar da, Aşıq onların bu gözəlliyini tam hesab eləmir. Elə ki, o zahiri gözəlliklə mənəvi gözəlliyi vəhdət halında görür, o zaman “Gözəlliyi cəm veribdi, xaliqü sübhan gözələ”, – deyir.

“Gözəllikdən danışmağın nə faydası” – bu şeirdə qadın gözəlliyinə əxlaqi dəyər prizmasından yanaşılır. Aşıq Ələsgərin qadın gözəlləmələri təkcə bədii-estetik baxımdan deyil, həm də mənəvi-mədəni kontekstdə dəyərləndirilməlidir. Onun qadın obrazı ülvi eşqin, zərifliyin, əxlaqın və xalq hikmətinin poetik simvoludur. Bu gözəlləmələr vasitəsilə Ələsgər nəinki qadını ucaldır, həm də öz dövrünün sosial-mədəni düşüncələrini poeziya vasitəsilə ifadə edir. Bu baxımdan, onun gözəlləmələri Azərbaycan aşıq poeziyasının klassik zirvələrindən biri kimi qalmaqda davam edir.

## Nəticə / *Conclusion*

Aşıq Ələsgər özündən sonra yetişən onlarca Azərbaycan aşıqlarının yaradıcılıqlarına qüvvətli təsir göstərən sənətkarlardandır. Təxminən 105 il ömür sürən Ələsgər zəngin bir irs qoyub getmişdir. O, uzun ömründə rastlaşdığı bir sıra hadisələrlə əlaqədar gözəl qoşmalar yaratmışdır ki, bu qoşmalarda dövrün haqsızlıqları, ayrı-ayrı adamların çirkin simasının ifşası mühüm yer tutur.

## Ədəbiyyat / *References*


1. Aşıq ədəbiyyatı antologiyası. C. 1: Aşıq poeziyası. – Bakı: Mega print, 2017, 592 s.
2. Aşıq Ələsgər – 190: Biblioqrafiya. – Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2011, 149 s.
3. Aşıq Ələsgər. Əsərləri, dastan-rəvayətlər, xatirələr. – Bakı: Şərq-Qərb, 1999, 578 s.
4. Aşıq Ələsgər. “Can” deməklə candan can əskik olmaz: şeirlər. – Bakı: Kitab klubu, 2015, 320 s.
5. Aşıq Ələsgər. Əsərləri, şeirlər, dastan-rəvayətlər. Təkrar nəşr. – Bakı: Şərq-Qərb, 2004, 400 s.
6. Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr. – Bakı: Çinar-çap, 2003, 496 s.
7. Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr. – Bakı: Çaşıoğlu, 2004, 488 s.
8. Ələsgər İ. Haqq aşığı Ələsgər: monoqrafiya. – Bakı: Maarif, 1999, 264 s.

9. Sarıvəlli O. Qüdrətli şair, ustad sənətkar. – Bakı: Avropa, 2011, 128 s.
10. Soltanov M. Şair və yazıçılarımızın həyatından maraqlı anlar. – Bakı: "AM 965" MMC, 2010, 212 s.

## Новый взгляд на образ женщины в творчестве Ашуга Алескера

**Фатма Гаджиева**
Доктор медицинских наук, профессор
Научно-исследовательский институт акушерства и гинекологии
E-mail: dr.fatima79@mail.ru
https://doi.org/0000-0003-0198-5887

**Хатаи Алескеров**
Общественное объединение «Деде Алесгер Оджагы» («Очаг Отца Алескера»)
E-mail: eleskerovhatai@gmail.com

**Резюме.** В статье рассматривается вопрос принятия женщины как ценности в творчестве Ашуга Алескера, вечно живой личности азербайджанской литературы. В творческих примерах женщины иногда предстают как недостижимая возлюбленная, иногда как духовная мать, а иногда как королева сердец. Также здесь учитываются сравнения, метафоры и символы, которые выступают неотъемлемой частью поэтической системы оценки главных женских качеств. В произведениях Ашуга Алескера образ женщины представлен не только как существо, обладающее внешней красотой, но и как носительница духовной ценности. Если прислушаться, то станет ясно, что Алескер рассматривает женщин не только как красавиц, но и как источники духовности, и это одна из главных причин, по которой его поэтика сохранилась в народе до наших дней. В наиболее важных разделах своего творчества Алескер не только превозносит женщин, но и выражает социально-культурные мысли своего времени посредством поэзии.
**Ключевые слова:** азербайджанка, Ашуг Алескер, духовно-нравственные ценности, народные творцы, женская красота